NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, № 1 (127)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1 (127)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, № 1 (127)

**EMİN ŞIXƏLİYEV**
*emin.amea@yahoo.com*
*Naxçıvan Dövlət Universiteti*

**DOI: 10.30546/155244.2024.2.127.007**

# ERMƏNİLƏRİN “XRİSTİANLIĞIN İLK ŞƏHİD MİLLƏTİ” İDDİASI VƏ ONUN BEYNƏLXALQ SİYASƏTDƏ YERİ

*Məlum olduğu kimi, heç bir hüquqi və elmi əsası olmayan erməni iddiaları tamamilə mifoloji düşüncələr üzərində qurulub möhkəmlənmişdir. Həmin iddialardan biri də “xristianlığın ilk şəhid milləti” iddiasıdır. Ümumiyyətlə, ermənilər region dövlətlərinə qarşı ərazi iddialarını qanuniləşdirmək və törətdikləri əməllərə bəraət qazandırmaq üçün din amilini başlıca silah olaraq əldə tuturlar. Həmin strategiyanın əsası isə bundan ibarətdir: dünya ictimaiyyətinin gözündə “dünyanın ilk xristian etnosu və dövləti”, “xristianlığın Qafqazdakı varisləri və qalası”, “xristianlığın ilk şəhid milləti” kimi obrazların yaradılması. Şübhəsiz ki, bu strategiyanın pərdə arxasında müəyyən gizli planlar yatır. Məqalədə ermənilərin “xristianlığın ilk şəhid milləti” iddiası və onun beynəlxalq siyasətdəki yeri bütün təfsilatı ilə araşdırılaraq təhlil edilmişdir.*

***Açar sözlər:*** *Erməni kilsəsi, din strategiyası, “ilk xristian dövlət” iddiası, “xristianlığın ilk şəhid milləti” iddiası, “böyük Ermənistan” ideologiyası*

## Giriş

Məlum olduğu kimi, ermənilər “böyük erməni tarixi”ni yaratmaq üçün “Nuhun nəvələri və varisləri”, “vəd olunmuş torpaqlar”, “yer üzünün ilk xristian etnosu və dövləti” kimi iddialar ortaya atmaqda, tarixlərini real olaraq deyil, görmək istədikləri kimi dəyişdirməyə çalışmaqdadırlar. Bu cəhdlər ermənilərin tarixini əfsanə və mifologiyalarla sıx surətdə birləşdirmişdir. Digər iddialardan biri də “xristianlığın ilk şəhid milləti” iddiasıdır ki, bu da 1915-ci il hadisələrinə dini don geyindirərək məsələni müsəlman-xristian toqquşması kimi bütün dünya ictimaiyyətinə təhrif olunmuş şəkildə tanıtmaqdan ibarətdir. Ermənilər bu vasitə ilə qonşu ölkələr üzərindəki ekspansionist əməllərini gerçəkləşdirmək niyyətindədirlər. Bu strategiyanın qaranlıq pərdəsi altında əlbəttə ki, müəyyən gizli planlar yatır. Qədim sivilizasiya, inzibati-ərazi, dini iddiaları özündə ehtiva edən bu strategiya ilə yola çıxan erməni kilsəsinin, millətçi ideoloqların qarşısında duran başlıca məqsəd və hədəf “böyük Ermənistan” ideologiyasının reallaşmasıdır. Bir məsələni qeyd etmək lazımdır ki, bu kimi iddiaların ortaya atılması sadəcə ermənilər üçün deyil, bundan siyasi və dini vasitə kimi istifadə etməyən çalışan aparıcı güclər üçün də son dərəcə əlverişli bir vasitə olmuşdur.

### *1915-ci il hadisələrinin pərdəarxası və tarixi reallıqları*

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, 1915-ci il hadisələri ermənilərin milli düşüncəsində **“Böyük Fəlakət – Meds Yeqhern”** (20, s.3), Qərb dünyasında isə **“tarixdə soyqırımına məruz qalmış ilk xristian millət”** olaraq xarakterizə olunur. Məhz bu düşüncənin təsiridir ki, ermənilər Qərb xristian dünyasından ilham alaraq hər il aprel ayının 24-də soyqırımı iddialarını bütün dünya ölkələrinin, xüsusilə də böyük dövlətlərin parlamentlərinin gündəminə gətirirlər. Halbuki ermənilərin iddia etdikləri bu hadisə soyqırımı olmayıb. Osmanlı dövlətinin öz təhlükəsizliyi naminə erməni üsyanlarının və türklərə qarşı törədilən qırğınların qarşısını almaq üçün hazırlamış olduğu müdafiə tədbiri idi. Belə ki, 24 aprel 1915-ci ildə erməni komitələri və partiyalarının fəaliyyətinə son verilmiş, İstanbulda yüzlərlə erməni terroristi həbs edilmişdir. Bəzi tədqiqatçılara görə, bu rəqəm **2345** (5, s.186; 9, s.213; 18, s.22; 19, s.146), digərlərinə görə isə **235**-dir (24, s.88; 27, s.78). Yəni burada heç bir ölüm və cinayət hadisələrindən söhbət gedə bilməz. Ermənilər komitə üzvlərinin həbs edildiyi 24

aprel tarixini soyqırımı günü elan etmişlər. Əgər söhbət osmanlılar tərəfindən ermənilərin təhcirindən gedirsə, onların yerlərinin dəyişdirilməsinə qərar verilən təhcir (köç) qanunu 27 may 1915-ci ildə qəbul edilmişdir (12, s.61; 19, s.259; 22, s.131). Yəni "24 aprel" ermənilərin iddia etdikləri kimi soyqırımına səbəb olan köçürülmə tarixi deyil, Daşnaksütyun, Hınçak, Ramqavar kimi komitə üzvlərinin həbs olunduğu tarixdir. Həbs olunan ermənilər sıravi vətəndaş olmayıb, komitə və terror təşkilatlarının üzvləri olduqları ingilis kəşfiyyat orqanları tərəfindən də doğrulanmışdır. Misirdəki ingilis hərbi idarəsinə göndərilən məlumatda göstərilir: 24 aprel 1915-ci il tarixdə 3 erməni ruhanisi, erməni qəzeti "Puzantion"un sahibi də aralarında olmaqla çox sayda erməni ələ keçirilmişdir, tezliklə onlar Ankaraya göndəriləcəklər. Həbs olunanların 500-ü Daşnak, 500-ü Hınçak, digərləri isə Ramqavar təşkilatının üzvləridir (5, s.186).

Qeyd edilməsi vacib olan məsələlərdən biri budur ki, təhcir (köçürülmə) və buna bağlı olaraq "erməni soyqırımı" adıyla önə sürülən hadisələrin əsl kökü Osmanlı dövlətinin hər müstəqil dövlət kimi müharibə əsnasındakı qanuni müdafiə hüquqlarını qorumaq istəməsindən qaynaqlanmışdır. Bu da bir həqiqətdir ki, 1915-ci ildə qəbul edilən "Təhcir Qanunu" sadəcə ermənilərə deyil, Osmanlı dövlətinə qarşı üsyan və düşmənlərlə əməkdaşlıq edənlərə qarşı tətbiq edilmişdir. Qanun mətnləri incələndiyində "erməni" kəlməsinə rast gəlinmir (3, s.124; 19, s.149; 23, s.605).

Burada soyqırımı ifadəsinə həm lüğət baxımından, həm də beynəlxalq hüquq qaydaları baxımından açıqlıq gətirməyi son dərəcə vacib hesab edirik. Etnik, milli və dini səbəblər üzündən silahsız və müdafiəsiz insanların kökündən məhv edilməsi soyqırımıdır (21, s.630-631). Həqiqətən də Osmanlı vətəndaşı olan silahsız və müdafiəsiz erməni xalqı türklər tərəfindən milli və dini səbəblər üzündən soyqırımına məruz qaldımı?

Tarix boyunca etnik azlıqlarla münasibətlərini müasir dövlətlərdən belə üstün bir səviyyədə quran Osmanlı dövlətinin XX əsrdə belə bir cinayətə baş vura biləcəyini düşünmək son dərəcə yanlışdır. Hər şeydən əvvəl ona görə ki, əgər milli baxımdan sırf ermənilər hədəf alınsaydı, Osmanlı dövründə onlardan paşa, nazir, millət vəkilləri çıxa bilərdimi?

Osmanlı imperiyasındakı azlıqların vəziyyəti obyektiv baxışla dəyərləndirilərsə, ermənilərin və hətta rumların dil və din azadlığına sahib olduqları, hərbi xidmətə çağırılmadıqları, ticarət haqqını əldə etdikləri, dövlətin üst səviyyəli postlarında yer tutduqlarını görmək olar. Tarixi materiallarda vaxtilə milləti-sadıka (sadiq millət) olaraq xarakterizə edilən ermənilərdən 29 paşa, 22 nazir, 33 millət vəkili, 7 səfir, 11 başkonsul, 11 universitet müəllimi, 41 yüksək rütbəli məmur olduğu göstərilir (ətraflı məlumat üçün bax: 3, s.121; 15, s.137-152; 19, s.9; 38). Hətta Osmanlı dövlətində ermənilərə "əhli-kitab" statusu içərisində dini tolerantlıq da göstərilmiş, çox sayda erməni kilsəsinin açılmasına icazə verilmişdir (7, s.156-158).

Göründüyü kimi, çoxsaylı uydurma və yalanların əksinə, ermənilər Osmanlı dövlətində maddi rifaha və xoş güzərana, iqtisadi və mədəni tərəqqiyə nail olmuşdular. Onlar bir sıra aparıcı amilləri əsas götürərək, xeyli sərvət toplamış və iqtisadi mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirmişdilər (1, s.56).

Başbakanlıq Osmanlı arxivindəki sənədlər və bir çox elmi araşdırmaların nəticələri də bu fikrə şərik çıxır ki, XVIII-XIX əsrlərdə Osmanlı iqtisadiyyatında ermənilər olduqca üstün mövqelərə malik olmuşlar (36; 37). Belə bir vəziyyətdə osmanlının ermənilərə soyqırımı tətbiq etdiyi şəklində önə sürülən iddiaların əsassız olduğu ortaya çıxır. Erməni iddialarının əksinə soyqırımına məruz qalan onlar deyil, türklər olmuşdular. Türkiyənin "Hərbi Tarix və Strateji Etüd Dairəsi Başqanlığı Arxivi"nin (Askeri Tarih ve Stratejik Etüt Dairesi Başkanlığı Arşivi - ATASE) sənədlərində qeyd olunan məlumatlara görə, erməni kilsəsi və təşkilatlarının da bilavasitə dəstəyi ilə Anadolu türklərinə qarşı soyqırımı gerçəkləşdirilmişdir (32, s.1; 33, s.33; 34, s.83; 35, s.159). Yenə eyni sənədlərə görə, türklərə qarşı genişmiqyaslı cinayətlər törədən Hınçaq, Daşnaksütyun və digər təşkilatlar Osmanlı Məclisindəki millət vəkilləri tərəfindən dəstəklənmişdi (33, s.41).

Erməni tarixçisi Dikran Kevorkyan yazır ki, Osmanlı dövlətinin ermənilərə qarşı yaxşı niyyətini, müsəlmanların ermənilərə eyni vətənin övladları olaraq göstərdikləri qardaşlıq duyğularını istismar edən komitələr dövlətin təməlinə dinamit qoymaqdan, vətən xaini olmaqdan, iki xalq arasında kin və

nifaq toxumları əkməkdən əl çəkməmişlər. Onlar hər fürsəti dəyərləndirmiş, məqsədlərinə çatmaq üçün hər yola baş vurmuşlar. Xüsusilə bu yolda ruhani liderlərindən, müəllimlərdən, əli qələm tutanlardan öz niyyətlərinin həyata keçirilməsində istifadə etmişlər (14, s.245).

Ermənilərin təşkilatlanaraq silahlı dəstələr yaratdıqları sənədlərlə isbatlandığına görə, cərəyan edən hadisələrə birmənalı olaraq "soyqırımı" demək yerinə, ermənilərdən qaynaqlanan və onların başlatdığı "üsyan" və bu üsyana qarşı Osmanlı dövlətinin öz qanuni səlahiyyətlərindən istifadə edərək aldığı tədbirlər, desək, daha doğru bir ifadə olar. Dünya miqyasında dövlətlərin bu cür tədbirlər aldığına dair çoxlu nümunələr mövcuddur. Məsələn, 1939-40-cı illərdə Fransa hökuməti Almaniyanın sərhəd bölgələrində yaşayan elzasları Fransanın cənub-qərbində yerləşən Dordoqnaya köçürmüşdü. Eyni şəkildə Amerikan hökuməti də Yaponiyanın gerçəkləşdirdiyi Pörl Harbur hücumundan sonra yapon mənşəli amerikan vətəndaşlarını Pasifikdən alaraq Missisipi vadisinə köçürmüşdü (24, s.42).

Təhcir qanunu çərçivəsində ermənilərin maddi baxımdan zərər görməmələri və geridə qalan mallarının tam dəyəri hesablanaraq sahiblərinə verilməsinə dair dövlət tərəfindən alınan tədbirlər soyqırımı iddialarını tarixi faktlarla çürüdən dəlillərdir (bu barədə bax: 32, s.129). Təhcir məsələsini soyqırımı olaraq dünya dövlətlərinin müzakirəsinə çıxaran ermənilər köç vaxtı ölən insanların sayını da mübaliğəli olaraq artırmaqdadırlar. Onlar bu rəqəmi 1,5 milyon olaraq göstərirlər. Halbuki, o tarixlərdə Osmanlı imperiyasının sərhədləri daxilində bu qədər erməni yaşamırdı. Amerikalı tarixçi Prof. Dr.Stanford Şav (Stanford Shaw) həm Osmanlı, həm də Qərb mənbələrinə istinad edərək, 1890-cı ildə Osmanlı dövlətində 12.585.950 müsəlmana qarşılıq 1.139.053 erməninin, 1897-ci ildə 14.111.945 müsəlmana qarşılıq 1.162.853 erməninin, 1906-cı ildə 15.518.478 müsəlmana qarşılıq 1.140.563 erməninin və 1914-cü ildə isə 15.044.846 müsəlmana qarşılıq 1.229.007 erməninin yaşadığı haqda çox maraqlı məlumatlar ortaya qoyur (28, s.330).

Göründüyü kimi, XIX əsrin sonları, XX əsrin əvvəllərində Osmanlı dövlətinin sərhədləri içərisində yaşayan ermənilərin sayı 1 milyon ilə təxminən 1,3 milyon arasında dəyişir. Digər bir tərəfdən, tarixi mənbələrdə təhcir qərarına əsasən, 700 min erməninin köçürülməsi ilə bağlı məlumatlar göstərilir (29, s.300; 30, s.34; 31, s.25). Görkəmli türk tarixçisi Kamuran Gürün qeyd edir ki, ermənilər tərəfindən göstərilən ölü sayısı 1915-ci ildə 300 mindən başlamış, 1980-ci illərdə 2 milyona çatmışdır. İllər keçdikcə bir millətin əhalisinin artması normal bir hadisədir, lakin müəyyən bir tarixdə ölmüş insanların zaman keçdikcə sayının artması isə çox qəribə bir icaddır (9, s.223).

Müqayisəli təhlillər əsasında ortaya çıxan məqam budur ki, 1,5 milyon erməninin soyqırımına uğradığı şəklində ortaya atılan iddialar heç bir reallığı əks etdirmir. Tərəfsiz olaraq məsələyə yanaşılarsa, ortada soyqırımı kimi bir hadisənin baş vermədiyi açıqca görülə bilər. Əgər bu qədər insan kütləvi qırğına məruz qalıbsa, o zaman Birinci Dünya müharibəsi sonunda sayları 1 milyonu keçən erməni əhalisi necə sağ qalmışdır? Eyni zamanda 1915-ci ildən sonra Fransa, ABŞ, İngiltərə, Rusiya, İran, Suriya və s. ölkələrə gedən ermənilərin saylarının o ölkələrin əhalisinin qeydiyyata alınması ilə bağlı statistik materialları əsasında öyrənilməsi və hal-hazırda bu ölkələrdə yaşayan ermənilərin sayının təsbit edilməsi iddia edilən soyqırımın törədilib-törədilmədiyini ortaya qoyur.

Burada diqqəti çəkən başqa bir məqam da var. Əgər iddia edildiyi kimi, 1,5 milyon erməni öldürülübsə, onlar harada dəfn olunublar? Kütləvi məzarlıq haradadır? Soyqırımı kimi ağır ittihamlarla çıxış edən ermənilər sübut üçün kütləvi məzarlığı göstərmək məcburiyyətindədirlər.

Köç əsnasında insanların müxtəlif xəstəliklərdən ölməsi mümkündür. Bu inkaredilməz həqiqətdir, lakin bu hadisələri soyqırımı adlandırmaq mümkündürmü? Digər bir tərəfdən, Osmanlı dövlətinə qarşı üsyan və düşmənlərlə əməkdaşlıq edən erməni fəaliyyətləri qarşısında hökumət hansı addımı atmalıydı? Bu dövlətin sərhədləri daxilində yaşamasına baxmayaraq, xəyanət edənlərə qarşı osmanlının həm hüquqi baxımdan, həm də təhlükəsizliyini qorumaq düşüncəsi ilə belə bir yola baş vurması qanun çərçivəsində deyildirmi?

Amerikalı tarixçilər Castin və Karolin Makkarti qardaşları yazırlar ki, ermənilərin bəzi bölgələrdən köçürülməsinə yönəlik Osmanlı hökumətinin niyyəti xarici qüvvələrlə əməkdaşlıq içərisində olan ermənilərin üsyan hərəkətlərinin təhlükəli səviyyəyə çatmasına mane olmaqdı. Bu

niyyət tamamilə hərbi təhlükəsizlik səbəbindən qaynaqlanırdı. Ermənilərin strateji bölgələrdəki varlığını dövlət üçün təhlükə olaraq dəyərləndirən hökumət onları bu bölgələrdən uzaqlaşdırmağı qərara aldı (26, s.52).

Hadisələri sırf obyektivlik prizmasından dəyərləndirsək, görərik ki, hər iki tərəfdən də ölənlər və öldürülənlər olmuş, hər iki tərəf də ağır nəticələrlə qarşılaşmışdır. Amma bu soyqırımı deyil, müharibə idi. Eyni zamanda məsələnin dərinliyinə endikcə, köçürülmə hadisəsinə rəvac verən amilin Osmanlı dövləti deyil, bilavasitə erməni komitələri və təşkilatları olduqları açıqca görülə bilər. Əgər onların başlatdıqları üsyanlar və Osmanlı dövlətinin parçalanmasına yönəlik xarici qüvvələrlə əməkdaşlıq fəaliyyətləri olmasaydı, heç şübhəsiz ki, təhcir (köç) hadisəsinə ehtiyac qalmayacaqdı.

Osmanlı dövlətinin ermənilərin düşmənlərlə əməkdaşlıq çərçivəsində üsyan və qırğın hərəkətlərinin artması səbəbiylə aldığı tədbirlər və bu tədbirlərin tətbiq olunması əsnasında müxtəlif səbəblərdən dolayı meydana gələn itkilər ermənilər tərəfindən dünya dövlətlərinin diqqətini çəkmək üçün təbliğat silahı olaraq istifadə edildi. Bugünkü siyasət də eyni istiqamətdə aparılmaqdadır. Lakin diqqəti çəkən əsas məqam ondan ibarətdir ki, ermənilər 1915-ci il hadisələrini dini motivlərlə süsləyərək təhlükəli bir strategiyaya baş vurmaqda və beləliklə, xristian dünyasının diqqətini öz üzərlərinə çəkməyə çalışmaqdadırlar.

***Dini motivlər üzərində qurulan 1915-ci il hadisələri: "xristianlığın ilk şəhid milləti" iddiası və Qərb dünyasının mövqeyi***

Bu iddia bilavasitə 1915-ci ildə baş vermiş hadisələrlə bağlıdır ki, həmin iddiaların arxasında erməni kilsəsi dayanır. Kilsə "qondarma erməni soyqırımı hekayəsi"ni əfsanələşdirmiş, uydurulan soyqırımı ilə Nuh tufanı arasında məntiqsiz bir əlaqə quraraq, erməni-türk düşmənçiliyini daha da gərginləşdirmişdir. Bu əfsanəyə görə, guya Tanrı tərəfindən "seçilmiş bir millət" olan ermənilərin Tufan hadisəsindən sonra nə qədər dözümlü və əzmli bir xalq olduğu ortaya çıxmışdır. Yəni Tanrı onları Nuh tufanı ilə sınağa çəkmiş, ermənilər də bu sınaqdan uğurla çıxmışlar. İddiaya görə, birinci imtahandan müvəffəqiyyətlə çıxan erməniləri Tanrı ikinci dəfə də imtahana çəkib ki, bu imtahan da əfsanələşdirilən "erməni soyqırımı" iddiasıdır. Guya ermənilər kütləvi surətdə məhv edilmək istənilmiş, amma bütün bunlara baxmayaraq öz iradəsi, dözümü və əzmi sayəsində millət olaraq tarix səhnəsindən silinməmişlər. Ermənilər arasında yayılan inanca görə, birinci fəlakət tufandırsa, ikinci fəlakət də türklərdir. Buna görə də türklər ermənilər tərəfindən insan kimi deyil, simvolik olaraq təbii fəlakətlərin meydana gətirdiyi hadisələrin sinonimidir (16, s.41). Erməni kilsəsi tərəfindən şüuraltına belə düşüncələr yerləşdirilmişdir ki, guya ermənilər Allahın lütfü ilə necə ki, tufanda məhv olmamış və ardından bütün dünyaya yayılaraq ana vətənlərinə qayıtmaq gücünü özlərində tapa bilmişdilərsə, 1915-ci il hadisələrindən sonra da həyatda qalmağı bacarmışlar (17, s.103). Amerikan tədqiqatçısı Səmyuel Uimz bu barədə yazır: "Ermənilər xristian dünyasının içində dönə-dönə nağıllar söyləyərək, özlərinin İsus Xristos yolunda əzabkeş millət olması haqqında xristian dünyasında ictimai fikir yaratmaq istəmişlər. Ermənilər xristian olmayan hər şeyin xristianlığa qarşı ziyan, qorxu və nifrət olması təsəvvürünü formalaşdırırlar. Bu günlər ermənilərin danışdığı ən böyük nağıl isə bundan ibarətdir ki, guya 1915-ci ildə onların 1.5 milyon nəfər ulu babası türklər tərəfindən qətlə yetirilmişdir və bu, iyirminci əsrin ilk genosid nağılıdır..." (2, s.62).

Daha sonra o, yazır: "...Ermənilər iddia edirlər ki, onlar əvvəlcə öldürülmüş və sonra - onlar bu cür yaxşı xristian olduğundan 1.5 milyon nəfəri İisus kimi zühur etmişdir. Hər şey bir yana, erməni liderləri xəyali genosidi "çarmıxa çəkilmə", yeni diktator ölkənin yaradılmasını isə İisus kimi "zühur etmək"lə müqayisə edirlər. Bu saxtakarlıqdır!..." (2, s.177).

Bu soyqırımı əfsanəsindən bir amil olaraq istifadə edib millətin beynini zəhərləyən erməni kilsəsi terror təşkilatlarını da hər vəchlə dəstəkləmişdir. Ermənilərin milli psixologiyasına görə, dünyanın bütün xristian ölkələrinin ermənilərin haqq səsinə cavab və dəstək vermələri zəruridir. Hər şeydən əvvəl ona görə ki, ermənilər "xristianlığın ilk şəhid milləti"dir. Bu metod da ermənilərin "din" strategiyasının əsas istiqamətlərindən biridir. "Xristianlığın ilk şəhid milləti" iddiası ilə ermənilər 1915-ci il hadisələri ilə yəhudi soyqırımı arasında əlaqə qurmağa çalışaraq, həmin metodla torpaq və təzminat almaq niyyətindədirlər.

Məlum olduğu kimi, faşistlərin idarəsi altında alman yəhudilərinin vətəndaşlıqları əllərindən alınmış və müxtəlif vəzifələrə gəlmələri qadağan edilmişdi. İkinci Dünya müharibəsinin başlanması ilə yəhudilərin kütləvi surətdə öldürülmələrinə hökm verilmiş və bu hökm dövlət siyasəti olaraq həyata keçirilmişdi. Kütləvi soyqırımı yəhudiləri vahid mərkəzdə birləşməyə aparıb çıxardı. Nəticədə onlar öz milli və dini birliklərini qorumaq üçün Yaxın Şərqdə bir dövlət qurdular. Bu dövlətin yaradılması eyni zamanda Qərb dövlətlərinin də maraqlarına uyğun idi. Yəhudilərin bu sayədə qazanclar əldə etdiyini fürsət bilən ermənilər 1990-cı illərdə "soyqırımı" kəlməsi ilə birlikdə "xolokost" kəlməsindən də istifadə etməyə başladılar. Onlar eyni zamanda beynəlxalq siyasətdə bu vəziyyətdən istifadə etməyi planlaşdıraraq tarixdə soyqırımına məruz qaldıqlarını iddia etməklə və tarixi əraziləri önə sürməklə heç bir zaman olmayan "böyük Ermənistan" dövlətini bərpa etmək, həmçinin "məzlum və zavallı" xalq kimi müxtəlif imtiyazlar, güzəştlər və eyni zamanda təzminat almaq niyyətinə düşdülər. Bugünkü siyasət də o istiqamətdə aparılmaqdadır. Hər il dünya ölkələrinin parlamentlərinin müzakirəsinə çıxarılan "soyqırımı" iddialarının pərdə arxasında həmin niyyətlər dayanır. Diqqəti çəkən bir məsələ də ondan ibarətdir ki, ermənilər 1915-ci il hadisələri ilə yəhudi soyqırımı arasında paralellik aparmaq niyyətində olsalar da, tarixi həqiqətlər ermənilərin yəhudilərdən fərqli olaraq soyqırımına məruz qalmadığını, əksinə törətdiklərini isbat edir. Bu isə "qondarma erməni soyqırımı" ilə "yəhudi xolokostu" arasındakı oxşarlığı tamamilə təkzib edir.

İkinci bir tərəfdən, ermənilərdən fərqli olaraq yəhudi xolokostunda silahlı bir üsyan olmamış, yəhudilər ilə toplum içərisindəki qruplar arasında silahlı münaqişələr cərəyan etməmişdir. Bütün cinayətlər faşist Almaniyasının təktərəfli şiddət siyasəti şəklində həyata keçirilmişdir. Eyni zamanda ermənilərdən fərqli olaraq yəhudilərə heç bir dövlət tərəfindən siyasi və hərbi baxımdan dəstək də verilməmişdir.

Üçüncüsü, yəhudilər bir bölgədən digər bir bölgəyə köçürülməyə də məruz qalmamış, sırf məhv edilmələri planlaşdırılmışdır.

Dördüncüsü, yenə də ermənilərdən fərqli olaraq yəhudilər ilə alman dövləti arasında olduqca güc fərqi də vardı. Yəhudilər gizli yerlərdə silahlanaraq qruplar meydana gətirməmişdilər.

Bütün bunlar həqiqət olsa da, ermənilərin yeritdiyi siyasət dünya ictimaiyyətinə haqq-ədalətin öz yerini tapması şəklində təqdim olunur. Bəzi nüfuzlu elitalar guya Hitler tərəfindən söylənən "kim erməni soyqırımını xatırlayır ki?" sözlərindən hər fürsətdə istifadə etməkdə (25, s.115) və Hitlerin bu soyqırımı fikrini türklərdən mənimsədiyini önə sürməkdə, eyni zamanda dünya ictimaiyyətinə faşistlər tərəfindən törədilən yəhudi soyqırımı ilə qondarma erməni soyqırımı arasında əlaqə qurmaq məqsədilə "türklərin gizli yazışmaları" adı altında ermənilərin vəhşicəsinə öldürülmələrini əmr edən saxta sənədlər təqdim etməkdədirlər (13, s.62). Həqiqətdə isə bu sənədlərin və Hitlerə aid edilən sözlərin heç bir əsası yoxdur. Əsas məqsəd "soyqırımı" iddialarını dünyanın aparıcı dövlətlərinin müzakirəsinə çıxarmaqla bu dövlətlərin dəstəyini qazanmaq və onların vasitəsilə Türkiyə üzərində təzyiq qura bilmək, nəticədə Türkiyəni üzr istəməyə məcbur etməklə torpaq və təzminat almaqdır. Ümumiyyətlə, ermənilərin "din" strategiyasının qaranlıq pərdəsi altında ərazi iddiaları və "dənizdən-dənizə böyük Ermənistan" dövləti yatır. Bəs yaxşı, bu strategiyanın beynəlxalq siyasətdəki yeri nədir? Dünyanın aparıcı dövlətlərinin "soyqırımı" iddialarını gündəmə gətirmələrindəki əsas məqsədləri və hədəfləri nədən ibarətdir? Qənaətimizcə, bu iddiaların Qərb dünyasında dəstəklənməsi antitürk və antiislam münasibətlər çərçivəsində dəyərləndirilə bilər ki, bunun da səbəblərindən birini Qərb-Türk sivilizasiyalarının toqquşmasında axtarmaq lazımdır. Digər bir səbəb Qərb-xristian dünyasının şüuraltında gizlənən "günahlardan arınma (təmizlənmə) psixologiyası"dır. Bu psixologiyanın pərdə arxasında gizlənən məqamları nələrdir? Məlum olduğu kimi, xristian Avropa ölkələri yəhudiləri Hz.İsanın, dolayısı ilə Tanrının qatilləri **(Godkiller)** olaraq görmüş və bu səbəbdən ilk günah inancında olduğu kimi, bütün yəhudi nəslini məsul tutmuşlar (6, s.381). Beləliklə, Tanrının öldürülməsi günahından təmizlənməsi mümkün olmayan "qanı kirli ikinci dərəcəli insanlar sinfi" kimi adlandırılan yəhudilər ən aşağı millət olaraq qəbul edilmişlər. Qeyd edək ki, eramızdan əvvəlki dövrlərdə də Assuriya, Babil və Roma tərəfindən sürgünə məruz qalan yəhudilər 1290-cı ildə İngiltərədən, 1394-cü ildə Fransadan, 1492-ci ildə də İspaniyadan deportasiya olunmuşdular.

Yəhudilərin adı çəkilən ölkələrdən sürgün edilmələri xristianlar tərəfindən bu millətin dini səbəblərdən qovulması şəklində xarakterizə olunmuş və xristian dünyasının ən qaranlıq dövrlərindən biri kimi qəbul edilmişdir. Nəticədə antisemitizm ideologiyası formalaşmışdır. XX əsrin əvvəllərində də nasistlərin idarəsi altında alman yəhudilərinin vətəndaşlıqları əllərindən alınmış və müxtəlif vəzifələrə gəlmələri qadağan edilmişdir. İkinci Dünya müharibəsinin başlanması ilə yəhudilərin kütləvi surətdə öldürülmələrinə hökm verilmiş, bu hökm dövlət siyasəti olaraq mənimsənilmiş və həyata keçirilmişdi. Beləliklə, yəhudilərin Nasist Almaniyası tərəfindən soyqırımı gerçəkləşdirilmişdir. Yəhudi soyqırımında məsuliyyət bilavasitə Almaniyanın üzərinə düşsə də, xristian olmaları səbəbi ilə ümumilikdə Qərb-xristian dünyası günahkarlıq duyğusuna qapılmışdır.

Yəhudilərə qarşı nifrətin müəyyən mənada digər səbəblərlə birlikdə dini antisemitizm – “antijudaizm”, yəni xristian-yəhudi düşmənçiliyi üzərində qurulduğunu etiraf edən Adolf Hitler “Mənim mübarizəm” adlı kitabında yazırdı: “...İsa yəhudi milləti haqqında bəslədiyi düşüncələrini heç bir zaman gizlətməmişdir. Hətta lazım gəldiyi vaxt bəşəriyyətin düşməni olan bu yəhudiləri Allahın ibadətgahından qamçı ilə qovmuşdur... Yəhudilər bu gün olduğu kimi, keçmişdə də dindən vasitə kimi istifadə etmişlər. Məhz bu səbəbdəndir ki, İsa çarmıxa çəkilmişdir. Hər yəhudinin ruhu öz məzhəblərinin qurucusuna nə qədər yaddırsa, xristianlığa da o qədər yaddır...” (11, s.314-315).

“Müqəddəs dəhşət: dini cinayətlər tarixi” kitabının müəllifi Ceyms A.Haut təkzibedilməz materiallar əsasında göstərir ki, insanlıq tarixinin ən bağışlanılmaz ləkələrindən olan nasistlər tərəfindən yəhudilərə qarşı tətbiq edilən soyqırımı cinayəti eyni zamanda dini zəmində də gerçəkləşdirilmişdir. Bu cinayət əsrlərdir xristianlığın musəvilik haqqındakı təlimlərinin acı meyvəsi idi. Əgər Tanrının adından musəvilərə qarşı nifrət aşılanmamış olsaydı, bu cinayətlər baş verməzdi. Nasistlər eyni xristian ənənələrinə görə hərəkət etdilər. Hitlerin törətdiyi soyqırımı musəvilərə qarşı uzun illərdən bəri qidalanan nifrətin ən yüksək həddi idi (10, s.105-106).

Müəllif digər bir yerdə də qeyd edir ki, nasistlərin törətdikləri cinayətlər yeni bir canilik deyildi. Onlar sadəcə olaraq 2 min illik tarixi olan musəvi əleyhdarlığına əsaslanan xristian ənənələrini davam etdirdilər. Faşistlərin ölüm düşərgələrinin kökləri xristianlığın tarixi strukturunda axtarılmalıdır. Musəvilərin şeytani rolları ilə əlaqəli əfsanələr əsrlər boyunca xristianlığı onlara qarşı hücuma sövq etmişdir (10, s.108).

Müəllif eyni zamanda vaxtilə rahib olan ilahiyyatçı alim Peter de Rosanın 1988-ci ildə nəşr olunan “Məsihin kəndli keşişləri” adlı kitabından sitat gətirərək yazır ki, Müqəddəs Papanın qəbul etdiyi qərarlarla qətliamlar, qaz otaqları və nasistlərin ölüm düşərgələrindəki insan sobaları arasındakı faciəvi əlaqələr inkar edilə bilməz (10, s.108).

Xristian rahibləri və ümumilikdə kilsə tərəfindən insanların beyinlərinin musəvi düşmənçiliyi ilə doldurulduğunu da qeyd edən Ceyms A.Haut onu da göstərir ki, din xadimləri sizə kimi öldürəcəyinizi söyləməz, sadəcə kimdən nifrət edəcəyinizi deyərlər. Kilsə daim gənclərə onların ən həssas dövrlərində musəvilərin İsanı öldürdüyünü və bu səbəblə Tanrının yəhudiləri əbədiyyətə qədər lənətlədiyini öyrətmişdir. 2 min il boyunca musəvilərə qarşı törədilən bütün cinayətlərdə kilsənin barmağı vardır. Harada xristian kilsəsi varsa, orada musəvi düşmənçiliyi vardır. Nasistlər də hakimiyyətə gəldiklərində öz cinayətlərini məhz bu reallıq üzərində qurdular (10, s.109-110).

Fikirlərimizi bir daha əsaslandırmaq üçün valideynləri İkinci Dünya müharibəsi dövründə nasistlər tərəfindən öldürülən yəhudi mənşəli amerikalı tarixçi Daqobert Ranesin sözlərinə müraciət etməyi məqsədəuyğun sayırıq. O, yəhudi soyqırımı barəsində xristian kilsəsini ittiham edərək deyirdi: “Hitlerin musəvilərə qarşı törətdiyi vəhşi cinayətlər onsuz da daha əvvəllər xristian kilsəsi tərəfindən yəhudilərə tətbiq edilirdi. Bu ilk zərbə deyildi... Musəvi kitablarının və yəhudilərin yandırılması... Hitler bunların hamısını kilsədən öyrəndi. Keçmiş dövrlərdə kilsə yəhudi uşaqlarını və qadınları diri-diri yandırarkən, Hitler onlara daha sürətli ölüm bağışladı. Əvvəlcə qaz otaqlarında öldürdü, sonra da yandırdı” (10, s.109).

Göründüyü kimi, yəhudi soyqırımında məsuliyyət bilavasitə Almaniyanın üzərinə düşmür. Bütün yəhudilərin düşüncəsinə görə, kilsə aşılamış olduğu fikirlərdən dolayı yəhudi soyqırımından ötrü məsuliyyət daşımaqdadır. Məhz bu baxımdan Qərb-xristian dünyası günahkarlıq duyğusuna

qapılmışdır. Yəhudilərə qarşı törədilən xolokostun (yəhudi soyqırımının) Qərb-xristian şüuru üzərindəki təsirləri o qədər dərindir ki, onun səbəb olduğu dərin psixoloji gərginlik xristianların heysiyyətinə toxunmuş və bu təsir üstündən illər keçsə də, özlərini günahkar hiss etmələrinə yol açmışdır. Onların erməni məsələsinə baxışı daha çox bu şüurun bilavasitə tarixdən miras qalmış hadisələri ilə əlaqəlidir. Bu günahlardan tamamilə silkinib arınmaq üçün guya türklər tərəfindən törədilən qondarma "erməni soyqırımı"nın yəhudi soyqırımına öncüllük təşkil etdiyi iddiası ortaya atılmış, hətta musəvilərin məhv edildiyi qaz otaqlarının türklər tərəfindən icad edildiyi və Hitlerin belə bir addım atmasında türklərin başlıca rol oynadığı da iddia edilmişdir (40).

Almaniya Parlamentinin nəzdində fəaliyyət göstərən "Elmi Tədqiqat Xidməti" adlı təşkilatın 3 aprel 2000-ci il tarixli raportunda göstərilməkdədir: "Alman Nasional-Sosialistlərinin gerçəkləşdirdikləri kütləvi yox etmə metodları əslində 1915-ci ildə ermənilərə qarşı türklər tərəfindən həyata keçirilmişdir. Ermənilər ağır şərtlər altında işlədilərək məhv edilmiş, insanlar heyvan vaqonlarına doldurulmuş və onların üzərində vəhşicəsinə tibbi təcrübələr aparılmışdır. Erməni əsgərləri və sivillər müxtəlif viruslara yoluxduruldular. Trabzonda erməni uşaqları hamama aparılmaq bəhanəsilə onlar üçün təşkil edilmiş otaqlarda zəhərli qazla öldürülmüşdülər. Gəldiyimiz nəticə bundan ibarətdir ki, Adolf Hitler türklər tərəfindən törədilən soyqırımı barəsində mükəmməl məlumatlara sahib olmuş və bunu özü üçün nümunə kimi mənimsəmişdir" (4, s.184-185).

Halbuki, yuxarıda da sitat gətirdiyimiz yəhudi mənşəli amerikalı tarixçi Daqobert Ranesin sözləri bu iddiaları kökündən təkzib etməkdədir. Əgər Hitler həqiqətən türklərdən nümunə götürsəydi, o zaman Daqobert Ranes kilsəni deyil, türkləri ittiham edər ya da ən azından bu barədə məlumat verərdi. "Hitler soyqırımını türklərdən öyrəndi" şüarı əsl həqiqətdə "biz əslində belə cinayətlərə yol verməzik, bu işdə müsəlman türklərin barmağı var" məntiqi ilə işləyən bir mexanizmlə günahlardan arınma metoduna baş vurulmuşdur (39). Yəni burada musəvilərin düşməni olaraq xristianlar deyil, guya xristianlara yol göstərən və onları kütləvi cinayətlərə sövq edən müsəlman türklər göstərilir.

Yuxarıda da qeyd edildiyi kimi, yəhudilərlə xristianlar arasında keçmişdən miras qalan düşmənçiliyin hökm sürdüyü tarixi həqiqətdir. Lakin İsrailin milli dövlət olaraq ortaya çıxması "yəhudi məsələsi"nin fərqli yöndə aktuallaşmasına yol açmışdır. Qərb yüzillərlə Avropa məkanında yəhudi-xristian qarşıdurması olaraq xarakterizə olunan yəhudi məsələsini müsəlman-yəhudi münaqişəsinə çevirərək Yaxın Şərqə ixrac etmişdir (6, s.380). Halbuki, Avropada əsrlərlə davam edən yəhudi məsələsi xristian teologiyasından qaynaqlanan antisemit hərəkət olsa da, İkinci Dünya müharibəsindən sonra Yaxın Şərqə ixrac edilən İsrail məsələsinə qarşı bölgədəki müsəlman ictimaiyyətin göstərdiyi reaksiya antisemit deyil, siyasi əsası olan antisionist bir reaksiyadır (6, s.381). Yəni burada əsas məqsəd xristian-yəhudi düşmənçiliyinin tədricən unutdurulması və öz yerini yəhudi-müsəlman münaqişəsinə verməkdən ibarət olmuşdur. İsrail ilə Ərəb dövlətləri arasında yəhudi-müsəlman düşmənçiliyi yaradıldığı kimi, ermənilərlə türklər arasında da belə bir problem meydana gətirilmişdir. Erməni məsələsi bilavasitə, türklərə qarşı tarixdən miras qalan səlibçilik zehniyyətindən qaynaqlanır ki, Qərb xristian dövlətlərinin bu məsələdə tutduğu mövqe həmin zehniyyətin bariz təcəssümüdür.

Qondarma erməni soyqırımı qərar layihələrinin nəyə görə hər il gündəmə gəlməsinin açıqlanmasında Qərb-xristian dövlətlərinin şüuraltında gizlənən günah duyğularının və səlibçi zehniyyətin payı olduqca böyükdür. Ancaq burada vacib bir sual ortaya çıxır: İkinci Dünya müharibəsindən sonra Qərb-xristian dünyasında "günahkarlıq, məzlumluq psixologiyası" atmosferinin yarandığı həqiqətdir, ancaq günahkarların və zərər çəkənlərin kimlər olduğuna hansı dövlətlər qərar vermişlər? Türk tədqiqatçısı Erol Göka haqlı olaraq yazır ki, həqiqi mənada məzlumluq psixologiyasından yararlananlar və yararlandıranlar bu psixologiyanın arxasında gizlənən Qərb-xristian dövlətləridir. Onlar istər Birinci Dünya müharibəsindən, istərsə də İkinci Dünya müharibəsindən, eyni zamanda milyonlarla insanın ölümündən məsuliyyət daşıyırlar. Məsələ burasındadır ki, əsl günahkarlar işlədikləri cinayətləri təmizə çıxarmaq üçün belə bir "məzlumluq" oyununu oynamaqdadırlar (8, s.133).

Çox önəmli bir məsələni də vurğulamaq lazımdır ki, Birinci Dünya müharibəsinin baş verməsindən heç bir formada məsuliyyət daşımayan xalqlar arasına nifaq salanlar hal-hazırda hakimlik kürsüsünə əyləşərək, türkləri ittiham etməkdədirlər. Heç kim "iki böyük dünya müharibəsinin başlanmasının əsl səbəbləri nə idi?", "dünyadakı güc mübarizələri və rəqabətləri nə deməkdir?" kimi imperialist əməlləri və mövqeləri ortaya çıxaracaq suallar verməməkdə, bunun yerinə "ermənilər türklər tərəfindən soyqırımına məruz qaldılar" şəklində ittihamlar yağdırmaqdadırlar.

Məzlumluq psixologiyasının altında gizlənən həqiqət hər iki dünya müharibəsinin cavabdehlərinin günah və cinayət psixologiyasıdır. Ümumilikdə yəhudilərin tarix boyu başına gətirilənlərdən məsuliyyət daşıdıqları halda baş vermiş cinayətlərə bəraət qazandırmaq üçün Qərb-xristian dünyası "biz əslində belə cinayətlərə yol verməzik, bu işin arxasında müsəlman türklərin barmağı vardır" tezisini ortaya ataraq, gülünc yolla günahlarından təmizlənməyi ümid edirlər.

Ortaya çıxan məqam budur: müəyyən mənada Qərb-xristian dünyası günahlardan arınmaq və özlərinə bəraət qazandırmaq üçün tarixdə ilk soyqırımı törədənlərin xristianlar deyil, ilk dəfə məhz xristian erməniləri soyqırımına məruz qoyan müsəlman türklər olduğunu önə sürürlər. Bu baxımdan Qərb-xristian ictimaiyyətinin nəzərində öz dini və siyasi mənafelərinə uyğun olaraq ermənilərə xüsusi rəğbət yaratmaq məqsədi ilə "xristianlığı rəsmən qəbul edən ilk dövlət və millət Ermənistan və ermənilərdir. Tarixdə ilk dəfə xristian ermənilər müsəlman türklər tərəfindən soyqırımına məruz qalmışlar" şəklində təbliğatlara geniş yer ayırmaqdadırlar.

Göründüyü kimi, dini, siyasi motivlər üzərində qurulan erməni iddiaları Qərb dövlətlərinin dini, siyasi maraqlarına xidmət edir ki, bu da bilavasitə antitürk zehniyyətdən və "günahlardan arınma psixologiyası"ndan qaynaqlanır. Azərbaycanın və Türkiyənin "erməni məsələsi" ilə bağlı beynəlxalq münasibətlər sistemində qarşılaşdıqları problemlər açıqca ortaya qoymuşdur ki, yeni strategiyaların müəyyən edilməsi və gücləndirilməsi qaçılmazdır. Bu mübarizədə uğurlar əldə etməyin başlıca yolu isə psixoloji müharibəyə daha yaxşı hazırlaşmaq və bunu qarşı tərəfə qəbul etdirə bilməkdir.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində**

1. Musayev İ. Erməni genosidi yoxsa türk-müsəlman soyqırımı. Bakı: Bakı Universiteti nəşriyyatı, 2001
2. Uimz Səmyuel A. Ermənistan-terrorçu "xristian" ölkənin gizlinləri. Bakı: OKA Ofset Azərbaycan-Türkiyə Nəşriyyat-Poliqrafiya şirkəti, 2004

**Türk dilində**

1. Aktar A.Y. Ermeni mezalimi ve soykırım iddialarına ilişkin kavram karmaşası / Osmanlı'dan günümüze ermeni sorunu, (editör: Hasan Celal Güzel). Ankara: Yeni Türkiye yayınları, 2000, s. 121-128
2. Aydoğan Metin. Bitmeyen oyun: Türkiye'yi bekleyen tehlikeler. İstanbul: Kumsaati yayınları, 2003
3. Başak T. İngiltere'nin Ermeni Politikası (1830-1923). İstanbul, IQ Kültür Sanat yayıncılık, 2008
4. Davutoğlu Ahmet. Stratejik derinlik: Türkiye'nin uluslararası konumu. İstanbul: Küre yayınları, 2010
5. Ercan Y. Osmanlı Devleti'nde müslüman olmayan topuluklar (millet sistemi) / Osmanlı'dan günümüze ermeni sorunu. (editör: Hasan Celal Güzel). Ankara: Yeni Türkiye yayınları, 2000, s. 145-161.
6. Göka Erol. Ermeni sorununun (gözden kaçan) psikolojik boyutu // Ermeni Araştırmaları Dergisi, 2001, sayı: 1, s. 128-138
7. Gürün K. Ermeni dosyası. Ankara: Türk Tarih Kurumu, 1985
8. Haught James A. Kutsal dehşet: dinsel cinayetler tarihi. İstanbul: Aykırı yayınları, 1999
9. Hitler Adolf. Kavgam. İstanbul: Toker yayınları, 1994
10. İlter E. Ermeni kilisesi ve terör. Ankara: Ankara Üniversitesi Osmanlı Tarihi Araştırma və Uygulama Merkezi yayınları, 1996

11. Kaya İbrahim. Ermenilerin yahudi soykırımıyla benzerlik kurma stratejisi // 2023 Dergisi, 2002, sayı: 12, s. 62-65
12. Kevorkyan D. Ermeni meselesinde tehcire amil olan sebepler / Tarih boyunca türklerin ermeni toplumu ile ilişkileri, Erzurum, 8-12 Ekim 1984
13. Kırmızı A. Son dönem Osmanlı bürokrasisinde akraba ermeniler // Ermeni Araştırmaları dergisi, 2003, cilt: 2, sayı: 8, s. 137-152.
14. Laçıner Sedat. Türkiye-Avrupa ilişkilerinde kültür ve medeniyet: tarihsel ve ideolojik kökenler // Liberal Düşünce Dergisi, 1999, cilt: 4, № 13, s. 39-57
15. Laçıner Sedat. Ermeni iddiaları ve terör / Ermeni sorunu el kitabı. Ankara: Ankara Üniversitesi basımevi, 2003, s. 95-122
16. Metel A.B. Ermeni mezalimi ve gerçekler. İstanbul: Yeni Batı Trakya Dergisi yayınları, 4. baskı, seri №6
17. Özkan Z. Tarihsel akış içerisinde terörden poltikaya ermeni meselesi. İstanbul: Er Ofset San. ve Tic. AŞ, 2001
18. Palabıyık M.S. 1915 olaylarını anlamak: Türkler ve ermeniler. İstanbul: Beta yayınları, 2015
19. Sönmezoğlu F. Uluslararası ilişkiler sözlüğü. İstanbul: DER yayınları, 2000
20. Süslü A. Ermeniler ve 1915 tehcir olayı. Van: Yüzüncü Yıl Üniversitesi Rektörlüğü, 1990
21. Uras E. Tarihte ermeniler ve ermeni meselesi. İstanbul: Belge yayınları, 1987

**Rus dilində:**

1. Файгл Э. Армянская мифомания. Москва: 2007

**İngilis dilində:**

1. Lowry Heath W. The U. S. Congress and Adolf Hitler on the Armenians // Institute of Turkish Studies, Washington D.C.: Pre-Print from: Political Communication and Persuasion, 1985, Volume: 3, Number: 2, p. 111-139
2. McCarty J., McCarty C. Turks and Armenians, a manual on the Armenian Question. Washington, 1989
3. Sarınay Y. What happened on April 24, 1915, a case study on the circular of 24 April 1915 and arrest of the Armenian committee members in Istanbul // International Journal of Turkish Studies, 2008, volume: 14, №1-2, p. 75-101.
4. Shaw S. The Ottoman census system and population (1831-1914), International Journal of Middle East Studies, 1978, vol. 9, №.3, p. 325-338.
5. Sonyel S.R. The Ottoman Armenians, victims of great power diplomacy. London, 1987
6. Sonyel S.R. Falsification and disinformation, negative factors in turco-Armenian relations. Ankara, 2000
7. The Armenians Issue in nine questions and answers. Ankara, 1982

**Arxiv materialları və rəsmi sənədlər:**

1. Genelkurmay Askeri Tarih ve Stratejik Etüd (ATASE) Başkanlığı, Askeri Tarih Belgeleri Dergisi (ATBD): mart 1983, sayı. 83, belge no: 1901
2. ATASE Başkanlığı. ATBD: mart 1983, sayı. 83, belge no: 1903
3. ATASE Başkanlığı. ATBD: mart 1983, sayı. 83, belge no: 1906
4. ATASE Başkanlığı. ATBD: mart 1983, sayı. 83, belge no: 1923
5. Türkiye Cumhuriyeti Başbakanlık Osmanlı Arşivi – T.C. BOA: dosya. Yıldız Sadaret Hususi, dosya №20, karton №1311, iç № 1355/1853, 283/31
6. T.C. BOA: Yıldız Evrak, zarf № 156, iç sayısı: 24

**İnternet adresləri:**

1. Anahit Astoyan. Osmanlı idari sisteminde ermeniler, mühtedi ermeni görevlileri. http://akunq.net/tr/?p=14355
2. http://www.doguturkistan.net/modules.php?name=AvantGo&file=print&sid=4741
3. http://www.1001kitap.com/Guncel/Tamer_Andrea_Bacinoglu/modern_alman_oryantalizmi/almanyaveermeni.html

## SUMMARY

**Emin Shikhaliyev**

**THE ARMENIAN'S "THE FIRST MARTYR NATION OF THE CHRISTIANITY" CLAIM AND ITS PLACE IN INTERNATIONAL POLITICS**

As well known that Armenain claims are based on mythological stories with forged documents and infotmation. These claims are from any scientific and historical basis. One of these pretentions is the claim of "the first martyr nation of Christianity". Generally, the Armenians use religion as a major weapon in order to justify their claims against the regional states. The strategy includes these: in the eyes of international community the Armenians are "the first Christian ethnos and the state" "the enclave and inheritance of Christianity in Caucasus region" and "the first martyr nation of Christianity". Without doubt there are some secret plans behind this religious strategy. In this article the Armenian's "the first martyr nation of the Christianity" claim and its place in international politics is fully analyzed and researched.

***Key words:*** *The Armenian church, religious strategy, "the first Christian state" claim, "the first martyr nation of Christianity" claim, the ideology of "Great Armenia"*



## РЕЗЮМЕ

**Эмин Шихалиев**

**ПРЕТЕНЗИИ "ПЕРВАЯ МУЧЕНИЧЕСКАЯ НАЦИЯ ХРИСТИАНСТВА" АРМЯН И ЕЕ МЕСТО В МЕЖДУНАРОДНОЙ ПОЛИТИКЕ**

Как известно, что армянские претензии опираются на поддельные документы и информацию, обоснованную далекими от исторических и научных фактов мифологическими легендами. Одно из таких заяавлений тезис об армянах как "первом в мире христианском народе – мученике". Армяне для легитимизации своих территориальных претензий против государств региона и, оправдания совершенных ими деяний как главнейшее оружие используют религию. Основное содержание этой стратегии в следующем: создание в глазах мировой общественности таких образов как "первый христианский этнос и государство мира", "наследники и крепость христианства на Кавказе" и "первого народа-мученика в христианстве". Несомненно, что под завесой "религиозной" стратегии скрываются определенные тайные планы. В статье со всеми подробностями и нюансами были изучены претензия "первая мученическая нация христианства" армян и место этой претензии в международной политике.

***Ключевые слова****: Армянская церковь, религиозная стратегия, претензии "первого христианского государства", претензия "первого народа-мученика в христианстве", "идеология" великой Армении*